# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 271** **Bakı şəhəri, 18 sentyabr 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər planı"nın təsdiq edilməsi haqqında" 2004-cü il 12 iyul tarixli 93 nömrəli və "Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun strukturu, işçilərinin say həddi və əməkhaqqı fondunun təsdiq edilməsi barədə" 2019-cu il 31 yanvar tarixli 29 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 dekabr tarixli 239-VIQD nömrəli Qanununun tətbiqi və "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1235 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 12 iyul tarixli 93 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 584; 2008, № 2, maddə 130; 2009, № 11, maddə 936; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955, № 7, maddə 1343; 2017, № 2, maddə 325, № 5, maddə 984; 2018, № 1, maddə 121; 2019, № 5, maddə 968; 2020, № 9, maddə 1234, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 iyun tarixli 161 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər planı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. I bölmənin adında və 1.5-ci bənddə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun" sözləri "Dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin;

1.2. 1-ci hissədə "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun" sözləri "dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin;

1.3. 1.1-ci bəndin birinci abzasında "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun" sözləri "Dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin;

1.4. 1.2-ci və 1.4-cü bəndlərdə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun" sözləri "dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin;

1.5. 1.3-cü bənd üzrə:

1.5.1. birinci abzasda "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun" sözləri "dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin;

1.5.2. "a" və "e" abzaslarında "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun" sözləri "Dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin;

1.6. 4.1-ci bəndin "a" abzası üzrə:

1.6.1. birinci cümlədə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun" sözləri "Dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin;

1.6.2. üçüncü cümlədə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun" sözləri "dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 31 yanvar tarixli 29 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019 № 1, maddə 173) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun əməkhaqqı fondu"nun cədvəl hissəsinin 3-cü sətrinin "Xərclərin iqtisadi təsnifatı" sütununda "Dövlət Sosial Müdafiə Fonduna ayırmalar" sözləri "Məcburi dövlət sosial sığorta haqqı ödənişləri" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***